| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 03.07.2007 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 2283 |
| **ADI** | Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-2007, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 719) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 03.07.2007 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.000.000<br>430.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında tarixən mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinin genişləndirilməsinə, əməkdaşlığın bütün sahələri və istiqamətləri üzrə əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verərək, bu əməkdaşlığın səmərəli təşkil olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikasının energetika naziri*
*Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri*
*Azərbaycan Respublikasının səhiyyə naziri*
*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Turizm Agentliyi sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi*
*"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri*
*"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti*
*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri*
*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.*

2 . Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfinin tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyul 2007-ci il
2283

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 8 fevral 2012-ci il tarixli **2016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 124**)
2. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
3. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
5. 23 iyul 2021-ci il tarixli **2810** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 25 iyul 2021-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 823)**

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 8 fevral 2012-ci il tarixli **2016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 124**) ilə 1-ci hissəsində "**İradə Hüseynova - Azərbaycan Respublikası təhsil nazirinin müavini**" sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** " sözləri ilə və "**Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri**" sözləri "**Nazim İbrahimov - Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin sədri**" sözləri ilə əvəz edilmişdir.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika naziri** " sözləri "**energetika naziri**" sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye** " sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384**) ilə 1-ci hissədən "**və Sənaye**" sözləri çıxarılmışdır.

[2] 23 iyul 2021-ci il tarixli **2810** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 25 iyul 2021-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 823**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın həmsədri**~~

-

| | |
|---|---|
| ~~Yaqub **Eyyubov**~~ | ~~- Azərbaycan Respublikası Baş nazirinin birinci müavini~~ |

-

~~**Komissiyanın üzvləri:**~~

-

| | |
|---|---|
| ~~Natiq **Əliyev**~~ | ~~- Azərbaycan Respublikasının energetika naziri~~ |
| ~~Füzuli **Ələkbərov**~~ | ~~- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri~~ |
| ~~Oqtay **Şirəliyev**~~ | ~~- Azərbaycan Respublikasının səhiyyə naziri~~ |
| ~~Aydın **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri~~ |
| ~~Nazim **İbrahimov**~~ | ~~- Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin sədri~~ |
| ~~Xələf **Xələfov**~~ | ~~- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Niyazi **Səfərov**~~ | ~~- Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini~~ |
| ~~Musa **Pənahov**~~ | ~~- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~ |
| ~~İlham **Quliyev**~~ | ~~- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Firdovsi **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini~~ |
| ~~Sevda **Məmmədəliyeva**~~ | ~~- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~Qulu **Novruzov**~~ | ~~- Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Elçin **Quliyev**~~ | ~~- Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi~~ |
| ~~Arzu **Rəhimov**~~ | ~~- Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi~~ |
| ~~Arif **Alışanov**~~ | ~~- "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri~~ |
| ~~Etibar **Pirverdiyev**~~ | ~~- "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti~~ |
| ~~Əhməd **Əhmədzadə**~~ | ~~- Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri~~ |
| ~~Kamal **İsmayılzadə**~~ | ~~- Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)~~ |